# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 95** **Bakı şəhəri, 17 mart 2022-ci il**

***“Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları”nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” 1992-ci il 3 mart tarixli 122 nömrəli, “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və sudan istifadə tariflərinin təsdiq edilməsi barədə” 2002-ci il 17 iyun tarixli 97 nömrəli, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarının ləğv edilməsi haqqında***

“Azərbaycan Respublikasının Su Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 759-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 sentyabr tarixli 1587 nömrəli Fərmanının 1.1.4-cü yarımbəndinin və “Su ehtiyatla-rından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasında sudan ödənişli istifadə Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi su obyektlərindən bilavasitə su götürən hüquqi və ya fiziki şəxslər tərəfindən götürülən suyun həcminə görə ödənişlərin həyata keçirilməsi mexanizminə dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikası üzrə sudan ödənişli istifadə qaydaları bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaların tələbləri nəzərə alınmaqla müəyyən edilir.

4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 2.2-ci, 3.2-ci, 4.2-ci, 5.3-cü və 6.3-cü bəndlərinə uyğun olaraq sudan istifadə haqqını (tarifləri) iki ay müddətində müəyyən etsin.

5. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 2.1-ci, 5.3-cü bəndləri və 3.3.1-3.3.4-cü, 4.3.1-4.3.9-cu yarımbəndləri bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan sudan istifadə haqqı (tariflər) təsdiq edildikdən sonra qüvvəyə minir.

6. “Təbii ehtiyatlara görə ödəmələrin, çirkləndirici maddələrin təbii mühitə atılmasına görə ödəmələrin tətbiqi və həmin ödənişlərdən əmələ gələn vəsaitdən istifadə haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 3 mart tarixli 122 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3-cü hissədə “Su ehtiyatlarından istifadəyə və ətraf” sözləri “Ətraf” sözü ilə və “1-7” rəqəmləri “3-7” rəqəmləri ilə əvəz edilsin;

6.2. 4-cü hissə ləğv edilsin;

6.3. həmin Qərarla təsdiq edilmiş “Təbii ehtiyatlara görə haqq və təbii mühitə atılan zərərli maddələrə görə ödəmələr alınması və bu ödəmələrdən istifadə Qaydaları”nın 12-ci bəndinin ikinci abzasından “yerli su mənbələrindən,” sözləri çıxarılsın və həmin bəndin üçüncü abzası ləğv edilsin;

6.4. həmin Qərarın 1 və 2 nömrəli əlavələri ləğv edilsin.

7. “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və Azərbaycan Respublikasında sudan istifadə tariflərinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 iyun tarixli 97 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 381; 2004, № 10, maddə 876; 2005, № 6, maddə 558; 2006, № 3, maddə 305; 2008, № 6, maddə 584; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955) 1-ci hissəsi ləğv edilsin.

8. “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 4 oktyabr tarixli 288 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1209; 2018, № 3, maddə 623) 2-ci və 3-cü hissələri ləğv edilsin.

9. “Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 mart tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 305) (2-ci hissə istisna olmaqla) ləğv edilsin.

10. Bu Qərarla təsdiq edilmiş Qaydalarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun ediləbilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***